Azərbaycan.- 2020.- 29 dekabr. S. 1; 4.

# Müsbət dinamika arxayınlıq yaratmamalıdır

2020-ci il başlayandan bəşəriyyət gözəgörünməz virusla, koronavirusla, sözün əsl mənasında, savaşa atılıb. Dünyanın gərdişini, insan oğlunun əsrlərdir alışdığı həyat tərzini dəyişən qlobal pandemiyaya qarşı mübarizəyə bütün dövlətlər aylardır səfərbər olub.

Amma təəssüf ki, hələ də bu savaşda COVID-19 adlı bəla irəlidədir. Bütün səylər infeksiya ilə mübarizəyə və profilaktika tədbirlərinə yönəlsə də, pandemiyanın qarşısını almaq hələ də mümkün deyil. Çinin Uhan şəhərində “ayaq açıb” planetin 213 ölkə və bölgəsinə yayılan koronavirusa yoluxanların ümumi sayı 81 milyon nəfəri ötüb, vəfat edənlərin sayı isə 2 milyona yaxınlaşır.

***Ardı 4-cü səh.***

# Müsbət dinamika arxayınlıq yaratmamalıdır

*Əvvəli 1-ci səh.*

## Dövlət mümkün olan bütün tədbirləri həyata keçirir

Dünya ölkələri vətəndaşlarını bu virusdan qorumaq üçün hazırda pandemiyaya qarşı ən effektiv vasitə olan karantin rejiminin tətbiqini həyata keçirməyi üstün tuturlar. Azərbaycan da bu üsulu tətbiq edən ölkələr sırasındadır. COVID-19 infeksiyası yayılmağa başladığı ilk günlərdən Azərbaycanda bütün istiqamətlər üzrə qabaqlayıcı tədbirlər həyata keçirilməyə başlandı. Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından koronavirusun ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə zəruri qabaqlayıcı tədbirlərə start verildi. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə alaraq, xəstəlik ölkəmizin sərhədlərinə yaxınlaşmazdan əvvəl hökumət problemin ciddiliyini anladı və dünyada öz sərhədlərini qapadan, bütün təhsil müəssisələrini bağlayan, kütləvi tədbirləri, idman yarışlarını təxirə salan ilk ölkələrdən biri oldu. Virusun geniş yayılmasının qarşısının alınması məqsədi ilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

Dövlət başçısının tapşırığına uyğun olaraq, ilk növbədə, ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırıldı. Xəstəlik diaqnozunun qoyulması üçün əhəmiyyətli olan laboratoriyaların sayı 8 dəfə artırıldı. Bölgələri də əhatə etməklə ölkədə 10 modul tipli xəstəxana quraşdırıldı, COVID xəstələri üçün 10 mindən çox çarpayı yeri yaradıldı. Həkim çatışmazlığı probleminin həlli üçün 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən mütəxəssislər dəvət edildi.

Birbaşa ölkə rəhbərinin ciddi nəzarəti və tapşırıqlarına əsasən, pandemiyaya qarşı həyata keçirilən mühüm çevik və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verdi, kütləvi yoluxmanın qarşısını aldı. Koronavirusla əlaqədar ilkin mərhələdə dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər ölkəni böyük fəlakətdən qorudu.

Karantin dövrü ərzində pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən dəstək göstərilərək, maddi və sosial yardımlar edildi. Dövlət vətəndaşlarını qorumaq üçün mümkün olan bütün tədbirləri həyata keçirir. Ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil edilərək lazımi qərarlar qəbul olunur.

Son aylar koronavirusa yoluxma hallarının kəskin artması ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargah ölkə üzrə xüsusi karantin rejimini yanvarın 31-dək uzadıb. Yanvarın 18-dək isə bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilib.

## Kompleks tədbirlər nəticəsində virusa yoluxma sayı azalır

Tətbiq edilən karantin rejimi və digər koronavirusla mübarizə tədbirlərinin səmərəliliyi sayəsində son günlər ölkəmizdə yoluxma hallarında azalma müşahidə olunmaqdadır. Eləcə də xəstəlikdən sağalanların sayı gündəlik yoluxanların sayını ötür ki, bu da səhiyyə sisteminin yükünün azalmasına zəmin yaradır.

Lakin koronavirusla bağlı statistik göstəricilərdə müsbət dinamikanın olması bizi arxayın etməməlidir. Çünki koronavirusa yoluxanların sayı təkrar artarsa, yenidən əvvəlki qorxulu vəziyyət yarana bilər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti yanında tibbi-elmi komitənin sədri, professor Akif Qurbanovun sözlərinə görə, epidemik prosesin içərisində dalğa adlandırılan ayrı-ayrı piklər olur. Həmin proses başlayanda əvvəlcə yoluxma sayları artır. Bu dövrdə sağalanların sayı az olur. Müəyyən müddətdən sonra epidemiya özünün pik həddinə çatır. Proses bir müddət pik vəziyyətində qalır. Sonra yoluxanların sayında azalma müşahidə olunur: "Keçmişdə yoluxub xəstələnənlər müalicə olunub sağaldıqları üçün onların sayı artır. Bu, epidemik prosesin qanunauyğunluğudur, hazırda biz onu müşahidə edirik. Bir neçə gün öncə ölkəmizdə koronavirusa yoluxanların sayı 4 minin üzərində idi. Təxminən iki həftə rəqəmlər belə qaldı. Bu, pik vəziyyəti idi. Hazırda isə getdikcə azalmalar müşahidə edilir. Burada görülmüş əks-epidemik tədbirlərin böyük əhəmiyyəti var. Vətəndaşların qaydalara riayət etməsi, müəyyən qadağaların tətbiq olunması, müxtəlif müəssisələrin bağlanması, iş rejiminin məhdudlaşdırılması və s. kompleks tədbirlər nəticəsində yoluxma saylarında azalmalar, bəzən isə kəskin enmələr müşahidə edilir".

A.Qurbanov bildirib ki, müsbət dinamika vətəndaşları koronavirusla mübarizədən çəkindirməməli, əksinə, görünməz düşmənlə daha qətiyyətlə vuruşmağa sövq etməlidir. Çünki hazırda qaydalara əməl etməkdən başqa güclü silahımız yoxdur.

## Qaydalara əməl etmək hər kəs üçün vacibdir

Lakin təəssüf ki, hələ də vətəndaşlar arasında təhlükəli xəstəliyə qarşı məsuliyyətsizlik və biganəlik halları baş verir. Hətta evdə müalicə olunan koronaviruslu xəstələr qaydalara riayət etmədən yaşayış yerindən çıxıb digərlərini yoluxdurmaqdan da çəkinmirlər. Odur ki, COVID-19 infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi ilə əlaqədar aktiv koronavirus xəstələrinin profilaktikasına nəzarət tədbirləri davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, dekabrın 26-27-də respublika ərazisində 9 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb və yaşadıqları evlərə qaytarılıb. 8 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

Sərt karantin rejiminin tətbiq edildiyi şəhər və rayonların giriş və çıxışlarında quraşdırılmış xüsusi postlarda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən nəzarət-profilaktiki yoxlamalar davam etdirilir. Yoxlamalar nəticəsində müxtəlif bölgələrdən karantin postlarını keçməyə cəhd edən koronavirus xəstələri, qanunsuz olaraq rayonlararası sərnişindaşıma fəaliyyəti ilə məşğul olan sürücülər də aşkarlanmaqdadır.

Unutmayaq ki, pandemiyaya qarşı görülən tədbirlərin səmərəli olması vətəndaşların qaydalara əməl etmələrindən asılıdır. Mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Qaydaları pozan insanlar daha məsuliyyətli davranıb nizam-intizama riayət etsələr, pandemiyanı nəzarətdə saxlamaq mümkün olacaq.

Kütləvi peyvəndlənmə tətbiq olunana qədər bu bəladan qorunmağın ən effektli yolu sərt karantin və izolyasiyadır. Vətəndaşlar özlərini, yaxınlarını düşünərək maksimal dərəcədə anlayışlı olmalı, qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşmamalı, bəsit gigiyenik qaydalara riayət etməli, maska taxmalı, sosial məsafəni saxlamalı, ehtiyac olmadıqda evdən çıxmamalıdır. Yalnız bu zaman yoluxma zəncirini qırmağa kömək edə, virusa birgə qalib gələ bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***